© N.S.Bəndəliyev, V.N.Bəndəliyev, 2007

# AZƏRBAYCAN ƏRAZİSİNDƏ RELYEF VƏ TƏBİİ ŞƏRAİTLƏ BAĞLI YERLİ XALQ COĞRAFİ TERMİNLƏRİ HAQQINDA
## (Böyük Qafqazın cənub-şərq yamacı timsalında)

**N.S.Bəndəliyev, V.N.Bəndəliyev**

*Azərbaycan MEA H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*
*AZ1143, Bakı, H.Cavid prosp., 31*

Məqalədə tədqiq edilən regionun bəzi landşaft toponimləri, relyef xüsusiyyətlərindən asılı olaraq, təbii şəraitlə bağlı landşaftların şaquli və üfüqi istiqamətdə dəyişmələri, coğrafi termin və əhalinin təsərrüfat fəaliyyətini əks etdirən yerli xalq coğrafi terminləri öyrənilir.

Landşaft toponimlərinin araşdırılması ərazidə baş vermiş təbii şəraitin keçmişini, keçmiş iqlim xüsusiyyətlərini, su obyektlərinin yerləşməsi, torpaq, bitki örtüyünün şaquli və üfüqi istiqamətdə dəyişməsi, bununla əlaqədar olaraq heyvanlar aləminin müasir, eləcədə keçmiş areallarının öyrənilməsində əhəmiyyətlidir. Toponimlərlə yanaşı, bir sıra yerli xalq coğrafi terminləri və toponimik terminlər vardır ki, onların da araşdırılması vacibdir. Adların həm ümumi, həm də özünə məxsus yaranma qanunauyğunluqları vardır.

Bu tədqiqat işində məqsədimiz Azərbaycan ərazisində müşahidə etdiyimiz relyef, təbii şərait və landşaft xüsusiyyətlərini əks etdirən Axtarma, Ayaz axtarması, Kəpdağ, Çildağ, Mağaralı dağ, Kühül dağ (Qobustan r-nu), Ağ Arqun, Boransız Cülgə (Abşeron r-nu), Bozdağ, Ala taxta, Kahalı dağ (Hacıqabul r-nu), Alakol yamacı, Qara taxta, Keçəl dağ (İsmayıllı r-nu), Cilgəz, Qurudağ, Qoşqar dağ, Çildağ, (Şamaxı r-nu) və b. toponimlərlə yanaşı Bana, Bazı, Tap, Bitar, Gərmə, Sırma, tapan, binə, ovruq, Kapan və s. toponimlər və yerli xalq coğrafi terminlərini nəzərdən keçirmək və onlara öz münasibətimizi bildirməkdir.

Azərbaycanın hər bir toponim və yerli xalq terminləri xalqımızın tarixi inkişaf yolunu, onun ənənə və məşğuliyyətini, landşaftların yayılma qanunauyğunluqlarını, təbii sərvətlərini əks etdirən söz abidələrimiz, sərvətimizdir. Bu baxımdan hər bir mikrotoponimin əhəmiyyəti böyükdür. Bunu nəzərə alaraq toponimistlərdən diqqətli olmaqla yanaşı tarix, linqvistik, kartoqrafik və coğrafi tədqiqat üsulundan bacarıqla istifadə etmək tələb olunur. Əks təqdirdə əsasından uzaqlaşmış bəzi adları təhrifdən xilas etmək əvəzinə, yanlış nəticə çıxarmaq olar. Bir də rəvayət və xalq etimalogiyalarını əcdadlarımızın yadigarı kimi qeydə almaq vacibdir. Lakin onların bəzilərinin arxasında həqiqətlər gizlənməsinə baxmayaraq, elmi əsaslarını üzə çıxarmaq qarşıda durmalıdır. Belə olduqda toponimist öz sözünü deməkdə yanılmaz mülahizələri elmi müzakirələrə səbəb ola bilər. Tədqiqatçı, hər şeydən əvvəl, coğrafi adın yerləşdiyi əraziyə, onun relyef formasına, torpaq-bitki örtüyünün xüsusiyyətlərinə diqqət yetirməlidir.

Bütün bunları nəzərə alaraq Azərbaycan ərazisində müşahidə etdiyimiz landşaft xüsusiyyətlərini əks etdirən coğrafi adları və yerli coğrafi terminləri nəzərdən keçirməyi lazım bilirik. Məsələn, relyeflə bağlı təbii şəraiti, landşaft xüsusiyyətlərini və s. özündə əks etdirən Axtarma, (Ayaz axtarma, Paşalı axtarma, Kolanı axtarma və s.) Çildağ, Kəpdağ, Yelgədik və b. qeyd etmək olar.

Axtarma – Azərbaycan ərazisində axtarma adlı sahələr (Ayaz axtarma, Paşalı axtarma, Pirəvənd axtarma, Goran axtarma, Kolanı axtarma və s.) geniş yayılmışdır.

Axtarma adlı sahələrdə palçıq vulkanları böyük iz buraxmışdır. Palçıq vulkanı landşaftı (Budaqov, Mikayılov, 1978) yayılmış sahələrdə müxtəlif relyef formaları ərazi boyu təkrarlanmaqdadır. Vulkanagen qüvvələrə məruz qalmış sahələrdə şor nohur və kiçik göllər yerləşir. Belə dönmüş sahələr axtarma adlanır. Burada bizi maraqlandıran axtarma sözü isə ilk baxışdan elə gəlir ki, vulkan sahəsindən ağ mayenin axmasına işarədir. Ağ durma və relyefin çala-çuxurlu olmasından asılı olaraq axtarma adlı sahələrdə hər hansı bir şeyi axtarma, tapılması mümkün deyil. Axtarma adlı sahələrdə axtarma adı altında çala-çuxurlu relyef formaları, bitkisiz və ya bitkidən kasıb vulkanik sahənin olduğunu göstərir. Lakin axtarma sözünün mənaca araşdırılması onun – sözün morfoloji oxşarlığı «ağ-durma» sözündən

olması fikrindən uzaqlaşdırır. Axtarmaq türk dillərindəki «ağtarmaq» sözündən olub, mənaca basıb əymək, çevirmək sözündəndir (Xudiev, Quliyev, 1992). Çünki yer altından püskürülmüş palçıq ətraf sahələrə təzyiq edərək onları basır, sürüşmələr və əyilmələr əmələ gətirməsi ilə səciyyəvidir ki, bu da relyefdə aydın seçilir.

Çil dağ (Alıcanov, Bəndəliyev, 1999) – adında ərazinin torpaq, bitki örtüyünün xüsusiyyətləri özünü göstərir. Çil dağ daşlı sahədir. Torpaq örtüyü zəif sahələrdə şibyənin yayılması diqqəti cəlb edir. Elə buna görə də dağ (çil görünüşünə görə) Çil dağ adlandırılmışdır. Bu da tədqiq olunan coğrafi obyektin landşaft xüsusiyyətlərini özündə əks etdirir.

Kəp dağ (Alıcanov, Bəndəliyev, 1999) coğrafi obyektinin yerləşdiyi ərazini təşkil edən suxurların tərkibindən asılı olaraq (karst prosesi baş vermiş) yeraltı mağaralar olan sahədir. R.Yüzbaşova görə, (Yuzbaşov,1966), «Kəp» pilləli qaya mənasında işlədilmişdir.

Kəp həm də tərəkəmələrdə quzu dərisindən hazırlanan «yannı gin» (yanlığı çobanların yanlarına bel qayışlarından asdıqlarına görə adlanması) boyun tərəfinə (kənarları gəz) ağacdan hazırlanır, ağacdakı çökək (gəz) yerə yanlığın boyun hissəsi bağlanır. Buna uyğun olaraq kəp dağ adlanmasını söyləyənlər də vardır. Bu bənzətmədəki xüsusiyyət dağın görünüşündə əks olunmaqdadır. Bundan əlavə, kəp sözü həm də dağ yamaclarında yumşaq süxurların yuyularaq aşınması nəticəsində daş layları zolaq şəklində üfüqi istiqamətdə uzanaraq kəmərvari görünüşə malik olur. Məsələn, fikrimizi aşağıdakı cümlə ilə aydınlaşdıra bilərik: «Kəpin üstünə qalx, ətraf oradan yaxşı görünür». Lakin bizcə, kəp həm də kəpkir (süzgəc) sözündən olmalıdır. Çünki ərazidə çoxlu karst quyuları olduğuna görə kəpkirə oxşadılaraq kəp adlanması şübhə doğurmur. Bununla da orada karst landşaftının inkişaf etdiyi coğrafi adda əks olunmuşdur.

Yanlıq – çobanlar yanlığı bel qayışına bağladıqlarına görə yanlıq adlanmışdır.

Ağ arqun – adlı coğrafi obyekt Mərkəzi Qobustanda yerləşir (Budaqov, Mikayılov, 1978). Belə coğrafi adlar ənənəvi olaraq ən çox şəxs adı ilə bağlanır. Türk xaqanlarından birinin adının Arqun olması da məlumdur. Onu da qeyd edək ki, Qobustanda Ağ arqun adlı sahənin səthi ağ rəngli süxurlardan ibarət yarğanlarla parçalanmış düzən səthə malikdir. Deməli, ərazini təşkil edən süxurların rəngi (ağ), səthin morfoloji xüsusiyyəti toponimdə əks olunmuşdur.

Türk dillərində «arqu» sözü mənaca yarğan, dərə deməkdir (Qeybullayev,1994). Bizcə, Ağ arqun yer adı da bununla bağlıdır. Beləki, «arqu» sözünə «n» səsinin artılması dialektlərimiz üçün səciyyəvidir.

Ayaz axtarma – Qobustanda sahəvi palçıq vulkanı sahəsidir. Burada «ayaz» sözü təsadüfi işlədilməmişdir. Ayaz sözündə nə vaxtsa sahəvi palçıq vulkan püskürməsi prosesi baş verməsi nəticəsində ərazinin landşaft xüsusiyyətləri əks olunmaqdadır. Yəni bitki örtüyünün zəif və ya heç olmaması ilə səciyyələnir.

Beləliklə, Ayaz axtarması adı altında ərazinin relyef, torpaq, bitki örtüyünün vulkanik sahələrə məxsus səciyyəvi xüsusiyyətləri öz əksini tapmışdır. Bu baxımdan Paşalı axtarmasından qərb tərəfdə, Şirvan düzündə yerləşən Ala taxta, Qara taxta adlı yerlərə diqqət yetirmək yerinə düşərdi. Ala taxta və Qara taxta adlı yerlərin hər ikisi vulkanik sahələrdir. Ala taxta - torpaq və bitki ortüyünün zəif, adda-budda olmasından xəbər verir. Taxta isə «düzən», «hamar» sahədir.

Qara taxta – adlı yer isə geniş ərazi tutmuşdur. Qara sözünün çoxlu mənaları vardır. Burada Qara taxta sözündə həm də rəng, böyüklük mənaları əks olunur.

Qara «böyük, «geniş», taxta isə «düzən, «hamar» mənasındadır. Kahalı dağ-ləngəbiz silsiləsinin cənub-şərq davamı olan Kəmaləddin dağ sistemində yer adıdır. Burada çoxlu yeraltı kahalar vardır. Xaraktercə yalançı karstdır. Kaha yeraltı karstın yer səthinə açılan qıfabənzər ağızlarıdır. Belə sahələrdə karstlı sahələrə məxsus landşaft yayılmışdır.

Mağaralı dağ-ləngəbiz silsiləsinin şərq yamacında, Qaraman adlı dağın cənub yamacında yerləşir. Burada əlçatmaz yamacda əhəngdaşlı süxurların aşınıb yuyulması nəticəsində bir neçə mağara yaranmışdır. Sonralar həmin mağaralar bəzən sığınacaq rolunu da oynamışdır.

Bozdağ-Qobustanda yerləşir (Azərbaycan SSRİ-nin… 1960). Azərbaycanın müxtəlif ərazilərində müxtəlif yüksəkliklərdə adın paralelləri vardır. Bozdağ sözündə relyef, relyefi təşkil edən süxurların rəngi, onun landşaft xüsusiyyətləri əks olunmuşdur. Bozdağ adında həm də ən başlıca səciyəvi xüsusiyətlərdən biri, orada hakim olan iqlim tipindən, bitki örtüyü və heyvanlar aləmindən xəbər verməsidir.

Keçəldağ – Taxta yaylaq sistemində yerləşir. Azərbaycan ərazisində dağ adının müxtəlif yüksəkliklərdə paralelləri vardır (Azərbaycan

SSRİ-nin… 1960). Burada keçəl sözündən məlum olur ki, dağın yüksək hissəsində (daha doğrusu, baş hissəsində) bitkidən məhrum, bitkisiz sahə vardır. Bununla bağlı Keçəl dağ adlanması güman olunur. Eləcə də Alakol yamacı və Çilgəz dağ adlarında relyef formaları və landşaftın yayılma xüsusiyyətləri öz əksini tapmışdır.

Alakol yamacında bitgi örtüyünün (kollarının) adalar şəkilində yerləşməsini Ala Kol sözündən məlum olur. Bu tip coğrafi obyekt adlarından biri də Sərdəxana dağ sistemindəki Çilgəz yaylaq adıdır. Azərbaycan ərazisində Çilgəz yer adının paralelləri vardır (Azərbaycan SSRİ-nin… 1960). Bu yay otlağı öz adını oradakı ortadan gəz (haça), çökək kiçik dağın adından almışdır. Bu da ərazinin həm gəz relyefli xüsusiyyətini, həm də çil sözündə daşlı sahələrin (bitki örtüyünün talalar şəklində yerləşərək görünməsi) landşaftını əks etdirir.

Azərbaycan ərazisində bir çox yer adlarında və terminlərində relyef formaları ilə yanaşı, oranın təbiətini əks etdirən iqlim xüsusiyyətləri də yaşamaqdadır. Məsələn, Qobustan təbii rayonunda Boransız cülgə adlı yer vardır (Alıcanov, Bəndəliyev, 1999). Bəzi ədəbiyyatlarda Boransız cılga (Yüzbaşov, 1966) adı da qeyd edilmişdir.

Boransız cülgə – Qobustanda Bakı – Şamaxı yolundan cənubda, Boyanata dağından şimalda yerləşir (Azərbaycan SSRİ-nin… 1971). Güclü yağışlar zamanı təbii çökəklikdə su durur. Yəni təbii sututumların kiçikləri adətən nohur və ya cülgə adlanır.

Akademik B.Ə. Budaqov Qobustanda Boransız cılğa coğrafi obyekt adını qeyd edir. Cılğanın bir çox mənalarda işlədildiyi məlumdur. B.Ə.Budqov çox haqlı olaraq «Boransız çılga»nı morfoloji cəhətdən qobu ilə dərə arasında keçid təşkil etdiyini göstərir (Budaqov, 1959). Çünki haqqında söz açdığımız coğrafi obyektin morfoloji quruluşu bunu tamamlayır. Geniş çökək sahəyə qobular açılır və oradan dərin yarğanlı dərə başlanır. Maraqlısı isə burada cılganın və ya cülgənin «boransız» adlanmasıdır. Qobustan ərazisində yağıntı az olur. Boransız cülgənin yerləşdiyi sahə Azərbaycan təbiətinin Abşeron yarımadasına doğru (qərbdən şərqə) aridləşməsi və Abşeron yarımadasında şərqdən qərbə doğru sərtləşməsinin görüşdüyü meridiana yaxın yerləşir. Buna görə də, demək olar ki, «Boransız cülgə» yerləşən əraziyə az yağıntı düşür, ilin fəsil və aylarında susuz və quru olur. Boransız cülgəyə çox nadir hallarda, yağıntı çox olan illərdə su yığıla bilər. Bizcə, Boransız cülgə adlı toponimin yerləşdiyi təbii şəraitindən xəbər verir.

Yelgədik – Böyük Qafqazda (Nialdağ sistemində zirvə adıdır, hündürlüyü 2318 m) yerləşir (Budaqov, 1965). Adından məlumdur ki, «gədik» (gəz) dağ tirəsində alçaq, aşırım, «yel» isə külək, hava axını mənasında olub, ən çox külək (yel) əsən dağın alcaq sahəsi kimi başa düşülür. Burada həm relyef forması gədik (gədik yerli coğrafi termindir), həm də təbii şəraitin xüsusiyyətləri öz əksini tapmışdır.

Güclü hava axınları zamanı hər iki tərəfdəki hündür dağ tirəsi ilə qarşılaşan hava axını dağın gəz yerindən asanlıqla keçərək güclü hava axını əmələ gətirə bilər.

Buna görə də zirvənin Yelgədik adlanması şübhəsizdir. Əslində, dağın adı Yelligədikdir. Sonralar deyilişdə yelgədik kimi tələffüs edilmişdir.

Yuxarıda qeyd edildiyi kimi, landşaftı əks etdirən toponimlər ərazinin keçmiş və müasir iqlimindən, torpaq, bitki örtüyü və heyvanlar aləmindən xəbər verən bir sıra coğrafi terminlər də vardır ki, onların araşdırılması maraqlı olardı (məsələn, Bana, Bazı, Boza, tap, tapan, Qırma, Kapan, Banistan, bitar, gərmə, çırma, dələmə, ovruq, dəngə (oba), dəyə, binə və s.).

Bu baxımdan relyefin təbii xüsusiyyətlərini əks etdirən terminlər Bana, tap, Qırma, bazı və s. qeyd edilməlidir. Bana – terraslararası (mərtəbəli) düzənlikdə müşahidə olunur. Banaya Şirvan düzündə Alataxta, Göyəc qışlaqlarında təsadüf olunur. Məsələn, «çıx taxtaya Kəlbəlayi Paşa banasının ayağındakı tapın altına bax, qoyunlar orada olmalıdır» (alt burada arxa, əks tərəf mənasındadır). Buradan aydın olur ki, bana pilləvari düzən sahələr olub, qədim terrasların izindən xəbər verir. E.Mehrəliyev bananın qədim terrasların qalığı olduğunu çox düzgün olaraq qeyd edir (Mehrəliyev, 1987). Belə relyefə malik sahələrdə ətraf ərazi hündürlüyü bana, görünən tirəciklər isə tap adlanır. Bizcə, kiçik relyef forması «bana» keçmişdə mövcud olmuş yük arabalarının yan tərəflərinə qoyulan ağac barmaqlıqlarında düzəldilən «ban» sözləri ilə eyni mənşəli olub oxşar formanı əks etdirir.

Tap – düzən sahələrdə terraslararası hündürlüklər, dağ ətəyi və yaylalarda kiçik müsbət relyef formalarıdır (Yüzbaşov, 1966). R.Yüzbaşov dağətəyində və dağüstündə düzənlik, terraslar arasında geniş düzənlik mənasında işlədildiyini qeyd edir.

N.Məmmədov tap termininin «su çıxmayan düz yer», «düzən yerdə təpə», «dağ döşündə

düzənlik», «dağ düzənliyi» və başqa mənalarda işlədildiyini göstərir (Məmmədov, 1993).

E.Mehrəliyev isə çayda çıxıntı konusunun yaratdığı səki olduğunu qeyd edir (Mehrəliyev, 1987).

Əslində, tap müsbət mikrorelyef formasıdır. Bizcə, tap termini tapan sözündə də özünü göstərir.

Yuxarıdakı «bananın ayağında tapın altı» ifadəsindən məlum olur ki, bananın ayaq hissəsindəki hündür (müsbət) mikrorelyef tap adlanır. Tap düzən və dağətəyi, dağüstü yaylalarda ola bilər. Tap sözü düzənlik mənasında deyil, düzən sahələrdə müsbət mikrorelyef forması mənasında işlənir. Bunun üçün tapan sözünə diqqət yetirmək kifayətdir (Həkimi, Bəndəliyev, 1996).

Qırma – düzən sahələrdə mikrorelyef formasıdır. Qırma adlı kiçik relyef formalarına ən çox Şirvan düzü qış sahələrində (Göyəç, Alataxta, Dönmüş və b. qışlaqlarda) təsadüf olunur. Burada qırma terminini özündə yaşadan sahələri diqqətlə nəzərdən keçirdikdə vulkan mənşəli relyef formaları olduğu aydın olur. Paşalı axtarma sahələri palçıq vulkanlarından cənub şərqdə bu ərazilərdə 2-3 km məsafədə uzanan terrasvari düzənliklər bir-birini əvəz edir. Lakin qədim terrasların izini əks etdirən erozion dərələrlə parçalanmış alçaq dağ tirələrinin bəzi yerlərdə sonradan gömrüldüyü müşahidə edilir. Bu da nə vaxtsa vulkan püskürməsi nəticəsində güclü palçıq axını zamanı baş verməsi relyefdən müəyyən olunur. Belə yerlər ərazidə terrasvari formalar əmələ gətirmişdir. Məsələn, Alataxta, Qarataxta, Dönmüş və s. göstərmək olar. Qeyd edilən ərazilərin hər biri 100 hektarla sahəni əhatə edir. Ümumiyyətlə, dəniz terraslarından fərqli olaraq bunlar palçıq vulkanlarının püskürməsindən yer səthinə yayılmış məhsullar hesabına terrasvari formalar əmələ gətirmişdir ki, qədim dəniz terraslarının bəzi yerlərdə gömrülməsinə səbəb olmuşdur.

Belə relyef formalarının ayaq hissələrini təşkil edən hündürlük qırma adlanır. Bəzən belə qırmalar xətti uzun olarsa, onda cəm şəklində qırdırma adlanır. Bu da təsvir olunan ərazinin qırılıb düşməsi kimi xatırlana bilər. Belə olduqda qırılma terminin «qraben» termini ilə səsləşdiyini düşünmək olar. Qrabendə tektonik hərəkətlər zamanı mərkəz hissəsinin sürüşməsindən fərqli olaraq qırmalarda palçıq vulkan püskürməsindən əmələ gəlmiş məhsulların axmasından yaranan mikrorelyef formalarıdır. Bizim fikrimizcə, qırma sözü qırılma sözündən olmalıdır.

Bitar – dağ, təpə ətəklərində arxac, yurd yerləri kimi anılır. Bitar adlı yerlərdə bitkilər arağaş bitir, tez ota dolur. «Bit» və «ar» hissələrindən ibarət olan «bitar» sözü arağaş bitmək mənasında olması başa düşülür. Ümumiyyətlə, bitar sözünün arxasında həm də arxac ifadəsi dürmüş olur.

Arxac – heyvandarlıqda sürülərin təhlükəsizliyini təmin etmək məqsədilə seçilən üç tərəfdən hündürlüklə əhatələnmiş çökək relyef formasıdır. Tərəkəmə adətənənələrinə görə, binələr mümkün qədər dağların belə dalda axarbaxarlı yerlərində yerləşdirilirdi.

Bir çox yerli xalq coğrafi terminləri əhalinin məşğulliyəti zərurətindən yaranmışdır. Məsələn, «Tapan», «Kapan», «binə», «Ovruq», «gərmə», «sırma» və s. qeyd etmək olar.

Tapan – tərəkəmələrdə alaçıqdan ev tikərkən çığın başından az yuxarı keçə qəlbin altından köndələn qamış və ya lığ topası bağlanır ki, bu da keçəni bayır (çöl) tərəfdən (qış basdırığı zamanı) çığın arxasına basdırılmış qamışdan kənarda saxlayır.

Çığ – qarğıdan toxunaraq (120-150 m hündürlükdə) alaçıq evin yer səthindən yanlarına çəkilir. Tərəkəmə evlərinin adı-alaçıq sözü də buradan yaranmışdır. Bu zaman keçəyə hopmuş yağış suları süzülür. Eyni zamanda qoyun-quzu üçün banıstan, kələ-küz və s. tikərkən qamış hasarın içəri və ya bayır tərəfinə qarşı-qarşıya bağlı halda (qom) tikinti boyu köndələn qoyularaq (Həkimi, Bəndəliyev, 1996) bağlanılan hissə tapan adlanır (qurşaq şəklində). Bu isə terrasvari düzən səthlər (bana ətəklərində) tirə şəkilində uzanan və ya dağ ətəklərində kiçik relyef forması – tapı xatırladır.

Akademik B.Ə.Budaqov relyefdə «tapan» coğrafi terminin «daban», «dib», «ətək» və b. mənalarında işlədilməsini qeyd edir (Budaqov, 1994). Bu fikir bir növ «tapan»ın tikintiyə «dayaq», möhkəmlik vermək vəzifəsini görməsi insanların təsərrüfat fəaliyyətində daha dolğun əksini taparaq tamamlanır. Bizcə mikrorelyef forması kimi xatırlanan coğrafi termin «tap» sözü öz əksini «tapan» yerli xalq coğrafi terminində tapmışdır. Beləliklə, «tap», «tapan» dəvəçilikdə işlədilən «kapan» ifadələri arasında bir yaxınlıq duyumu vardır (Həkimi, Bəndəliyev, 1996).

Ovruq - qədimdə, adətən, köçəri heyvandarlar (ellər) köçərkən əvvəl ev əşyalarının lazım olmayanını (ehtiyatı) qış yurdlarına aparırdılar ki, köçərkən yük azalıb yüngülləşsin. Apa-

rılmış belə (yatacaq və s.) əşyalar «ovruq» adlanır. Məsələn, «Belə görürəm ki, köç vaxtı yaxınlaşır. Çünki dünən Abyı qışlağa ovruq aparan gördüm». Yuxarıda qeyd edilən cümlədə, məncə, fikir aydınlaşmış olur.

Gərmə – sözü məlumdur ki, qoyunların qış ayında yatdığı ağıl və banıstanlarda olur. Çünki gərmə ilin bütün fəsillərində əmələ gələ bilmir. Gərmə əmələgəlmə ilin fəsillərindən asılı olaraq qidanın tərkib hissəsi ilə bağlıdır. Gərmədən tərəkəmələr yanacaq kimi istifadə edirlər. Lakin bizi maraqlandıran isə bəzi elatlarda qış yataqlarına gərmə deyilməsidir. Məsələn, «Bir ora bax, bizim gərmədən tüstü çıxır, deyəsən, binə gəlibdir. Yəqin ki, ovruq gətirən vardır». Yuxarıdakı cümlədən aydın olur ki, «gərmə» sözü burada yanacaq deyil, qış yatağı mənası ifadə edir.

Sırma – qış aylarında gərmənin məhlulvari halıdır. Sırma qoyunların yununu batırır, hər gün heyvanın ətək yunlarına yapışaraq şaqqıldaq deyilən daşlaşan qozalar əmələ gətirir. Bizcə sırma gərmənin, əksinə olaraq qoyunların yununa yapışaraq sarılması (sırılması) mənasını bildirir.

Beləliklə araşdırmalar nəticəsində Axtarma, Ayaz axtarma, Çil gəz, Çil dağ, Kəp dağ, Mağaralı dağ, Boz dağ, Qara taxta, Ala taxta, Ağ arqun, Keçəl dağ, Ala kol yamacı və b. coğrafi obyekt adlarında ərazinin relyefi, relyefi təşkil edən süxurları, landşaft xüsusiyyətlərini, Boransız Cülgə, Yelgədik, (Yelli gədik), coğrafi adlarında ərazinin iqlim, yağıntı və landşaftları haqqında məlumatları, bana, qırma, tab coğrafi terminləri relyefin və landşaftların təbii xüsusiyyətlərini, ban, tapan, ovruq, gərmə, sırma və başqa terminlər əhalinin təsərrüfat məşğuliyyətini göstərən yerli xalq terminlərində öz əksini tapmışdır.

## ƏDƏBİYYAT


Azərbaycan SSRİ-nin izahlı coğrafi adları lüğəti. 1960. Bakı.

Azərbaycan SSRİ-nin palçıq vulkanları atlası. 1971. Bakı.

ALICANOV, M.S., BƏNDƏLİYEV, N.S. 1999. Azərbaycan ərazisində təbii şərait və landşatla bağlı bəzi toponimlər haqqında. *Azərbaycan onomastikası problemlərinə həsr olunmuş VII elmi – nəzəri konfransın materialları*. Bakı.

BƏNDƏLİYEV, N.S. 2005 Azərbaycan respublikasının fiziki coğrafiyasının tədrisi prosesində yerli termin və toponimlərin istifadə yolları (adlı metodik vəsait). Bakı.

BƏNDƏLİYEV, N.S. 1974. Yerli coğrafi termin və adların öyrədilməsi. *Tarix, ictimaiyyat, coğrafiya tədrisi.* 2(62).

BƏNDƏLİYEV, N.S. BƏNDƏLİYEV, V.N. 1998. Bəzi toponim və terminlər haqqında. *N.Tusi adına ADPU – nun Şamaxı filialı əməkdaşlarının VII elmi konfransının materialları*. Bakı.

BUDAQOV, B.Ə. 1959. Azərbaycan coğrafiya terminlərinin bəzi məsələlərinə dair. *Azərbaycan SSR EA xəbərləri geologiya – coğrafiya elmləri seriyası,* 1.

BUDAQOV, B.Ə. 1965. Böyük Qafqazın qədim və müasir buzlaqları. Bakı.

BUDAQOV, B.Ə., MİKAYILOV, A.A. 1978. Azərbaycanda palçıq vulkanlarının geniş yayıldığı ərazilərin landşaft rayonlaşması. *Azərbaycan SSR EA xəbərləri. Yer elmləri seriyası*, 3. Bakı.

BUDAQOV, B.Ə. 1994. Türk uluslarının yer yaddaşı. Bakı.

HƏKİMİ, A., BƏNDƏLİYEV, N.C. 1996. Azərbaycanın bəzi landşaft toponimləri və yerli coğrafi terminləri haqqında. *Azərbaycan onomastikası problemlərinə həsr olunmuş VI elmi-nəzəri konfransın materialları*. Bakı.

XUDİYEV, N.M., QULİYEV, Ə.A. (tərtibçilər). 1992. Qədim türk abidələri sözlüyü. Bakı.

QEYBULLAYEV, Q. 1994 Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı.

MEHRƏLİYEV, E.Q. 1987. Xalq coğrafi terminlərinin izahlı lüğəti. Bakı.

MƏMMƏDOV, N.G. 1993. Azərbaycan yer adları. Bakı.

MƏMMƏDOV, N.G. 1973. Coğrafi adların öyrənilməsi və onlara aid məxəzlər. *Tarix, ictimaiyyat, coğrafiya tədrisi,* 6. Bakı.

YÜZBAŞOV, R.M. 1966. Azərbaycan coğrafiya terminləri tədqiqlər. Bakı.

План зимних пастбищ Шамахинского района Азерб. ССР в масштабе 1:50000. 1935-1936 г. По результатам полевой паспортизации экспедиции НИИ экономики с/х при Зак. НК по Земле.


***Məqaləyə b.e.i. M.Abbasova rəy vermişdir***